*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 23 iyun 2004-cü il tarixli 06/45 saylı Qərarı ilə təsdiq edilmiş, 22 aprel 2010-cu il tarixli 9/46 saylı və 15 may 2015-ci il tarixli 9/83 saylı Qərarları ilə dəyişikliklər edilmişdir.*

# Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi

# Q A Y D A L A R I

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə imza toplamaq məqsədilə deputatlığa namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi qaydaları Azərbaycan Respublikasının Seçki Məcəlləsi və bu Qaydalarla tənzimlənir.

## 1. İmza vərəqələrinin verilməsinə dair tələblər

1.1. Dairə seçki komissiyası tərəfindən deputatlığa namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə namizədin müdafiəsi məqsədilə seçici imzalarının toplanması üçün imza vərəqələrinin verilməsi deputatlığa namizədin irəli sürülməsini təsdiq edən qərarın qəbul edildiyi gündən başlanır.

1.2. Namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə imza vərəqələri verilərkən hər bir imza vərəqəsinin yuxarı sağ küncü dairə seçki komissiyasının möhrü ilə təsdiqlənməlidir.

1.3. İmza vərəqələri Azərbaycan Respublikasının Seçki Məcəlləsinə 1 və 1 “A” saylı əlavələrdə göstərilən formada hazırlanmışdır (Qaydalara 2 və 2a saylı əlavələr).

1.4. Namizədə və ya səlahiyyətli nümayəndəyə imza vərəqələri verilərkən 2 nüsxədən ibarət akt (Qaydalara 1 saylı əlavə) tərtib edilməlidir. Tərtib olunmuş akt dairə seçki komissiyasının sədri, namizəd və ya səlahiyyətli nümayəndə tərəfindən imzalanır və dairə seçki komissiyasının möhrü ilə təsdiqlənir.

1.5. İmza vərəqələrinin qəbul edilməsi haqqında aktda namizədin və ya səlahiyyətli nümayəndənin soyadı, adı, atasının adı, verilən imza vərəqələrinin sayı və forması, habelə digər məlumatlar göstərilməlidir.

1.6. Tərtib edilmiş akt imzalanaraq möhürləndikdən sonra onun bir nüsxəsi dairə seçki komissiyasında qalır. Digər nüsxəsi isə verilən imza vərəqələri ilə birlikdə namizədə və ya səlahiyyətli nümayəndəyə təqdim edilir.

*Qaydalara 1 saylı əlavə*

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədlərin müdafiəsi məqsədilə seçici imzalarının toplanması üçün imza vərəqələrinin verilməsi haqqında**

# A K T

_________________________ "____" ________ 20 il
*(rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Saat ________

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə _____ saylı _________________________ seçki dairəsindən namizəd irəli sürülmüş
*(seçki dairəsinin adı)*
___________________________ müdafiəsi məqsədilə seçici imzalarının
*(soyadı, adı, atasının adı)*
toplanması üçün Azərbaycan Respublikası Seçki Məcəlləsinin ______________________________ saylı əlavəsinə uyğun hazırlanmış
*(1 və ya 1 "A" saylı əlavə göstərilməklə)*
________________________________ ____________ imza vərəqəsi
*(sözlə)* *(rəqəmlə)*
namizədə (səlahiyyətli nümayəndəyə) ___________________________
*(soyadı, adı, atasının adı)*
verildi.

**Dairə seçki komissiyasının sədri** _________ ______________________
*(imza)* *(inisialı və soyadı)*

M.Y.

**Deputatlığa namizəd** _________ ______________________
*(imza)* *(inisialı və soyadı)*

və ya

**səlahiyyətli nümayəndə** _________ ______________________
*(təmsil etdiyi siyasi partiya,siyasi partiyaların bloku və ya namizəd barədə məlumat göstərilməklə)* *(imza)* *(inisialı və soyadı)*

______

**Qeyd:** akt 2 nüsxədə tərtib edilməklə dairə seçki komissiyasının möhrü ilə təsdiqlənir.